**UOT 101.1**

# MƏDƏNİYYƏT PROBLEMİ SOSİAL FƏLSƏFƏNİN TƏDQİQAT OBYEKTLƏRİNDƏN BİRİ KİMİ

**Nigar HÜSEYNOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 25 iyul 2024; çapa qəbul edilmişdir: 15 sentyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 25th of Jule, 2024; accepted: 15th of September, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *mədəniyyət, fəlsəfi təhlil, mədəniyyət sistemi, fəlsəfi dərk olunma, fəlsəfi kateqoriya*

## Giriş

Məlum olduğu kimi, mədəniyyət problemi müxtəlif sosial elmlərin, o cümlədən fəlsəfənin tədqiqat obyektidir. Müasir elmi ədəbiyyatda mədəniyyətin yüzlərlə tərifi vardır. Müstəqil anlayış kimi ilk dəfə mədəniyyət anlayışına XVII əsrdə alman hüquqşünası S.Pufendorfun əsərlərində təsadüf olunmuşdur. O, mədəniyyəti insanın təbii vəziyyətinə qarşı qoyurdu.

Mədəniyyəti sistemli şəkildə tədqiq edən müstəqil bilik sahələrdən biri mədəniyyət fəlsəfəsidir. Mədəniyyət fəlsəfəsi terminini elmi dövriyyəyə XIX əsrdə alman romantiki A.Müller daxil etmişdir. Mədəniyyət fəlsəfəsi mədəniyyətlə bağlı təsəvvürlərin xüsusi sistemi kimi mədəniyyət haqqında digər elm sahəsi mədəniyyətşünaslıqdan əsaslı şəkildə fərqlənir. Mədəniyyət fəlsəfəsi XIX əsrdə meydana gəlməsinə baxmayaraq onun mahiyyəti, təbiəti və funksiyaları ənənəvi fəlsəfi problem kimi hələ antik dövrdə sofistlər tərəfindən tədqiq olunmuşdur. Mədəniyyət anlayışı geniş və dar məna çalarlarına malikdir. “Geniş *mənada mədəniyyət, cəmiyyət tərəfindən qəbul edilmiş bütün həyat formalarının – adətlərin, normaların, simvolların, inamların, dəyərlərin və artefaktların məcmusudur. Bu baxış müstəvisindən mədəniyyətə xalqın həyat tərzi, onun geyimi, məişəti, mətbəxi, folkloru, inancı, dili, həmçinin cəmiyyətdə qəbul edilmiş jestlər, nəzakət, etiket, gigiyenik vərdişlər, ictimai yaşayış qaydaları, təsisatlar, o cümlədən, dövlət və iqtisadiyyat daxildir. Dar mənada isə mədəniyyətin hüdudları mənəvi yaradıcılıq sahələri ilə, sənət, əxlaq, mənəvi fəaliyyətlə məhdudlaşır”* [2]. Göründüyü kimi, mədəniyyətin hər iki mənası bir-birini tamamlayır.

Mədəniyyət fenomeninin fəlsəfi səviyyədə dərk olunması mərhələsində onun naturalist, klassik, qeyri-klassik, postmodernist modelləri yaranmışdır.

## 1. Mədəniyyətin inkişaf modelləri

Maarifçilik fəlsəfəsində meydana gəlmiş naturalist cərəyan mədəniyyətə təbii təkamüldə olan bir proses kimi baxır. Klassik model insanı dindən və təbiətdən asılı olmayan mədəniyyətin subyekti kimi nəzərdən keçirir. Burada mədəniyyət cəmiyyətin və insanın mənəvi və siyasi özünuinkişafının formaları ilə eyniləşdirilir. Çünki mədəniyyətin klassik modelinin əsasında humanizm, rasionalizm, tarixilik durur.

[*] *fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Dillər Universiteti*
*e-mail:* nigar.huseynova@gmail.com
*ORCID:* 0000-0003-3383-045X
**https://doi.org/10.30546/25194011.2024.13.5.0125**

Mədəniyyətin qeyri-klassik-modern ist modeli isə XX əsrdə mədəniyyətin rasionalist səviyyədə dərk olunmasının çətinliklərinə reaksiya olaraq meydana gəlmişdir. Həmin model üçün nikbinlik, dünyanın cəfəng olması ideyası, sistemləşmə və nizamlamadan imtina edilməsi xüsusiyyətləri xarakterikdir. Bu mənada mədəniyyətin postmodernist modeli dünyanın yaradıcı dəyişikliyinin perspektivsizliyi müddəasına əsaslanır.

Mədəniyyətə dair, həmçinin, aksioloji, semiostik, strukturalist, sosioloji, humanitar nəzəri yanaşmalar mövcuddur. Mədəniyyət, eyni zamanda, idraki, dəyişdirici, kommunikativ, normativ funksiyaları yerinə yetirir.

Mədəniyyət açıq, tarixən təkamül yolu ilə inkişaf edən bir sistemdir. Onun inkişaf dinamikası varislikdən, mədəni ənənələrdən, yeniliklərdən ibarətdir ki, novatorluq fəaliyyəti nəticəsində mədəniyyət dəyərləri zənginləşir. Bu ənənələr də öz növbəsində mədəniyyətin sabit tərəfi olub sosial təcrübənin artmasını, qorunub saxlanması və ötürülməsini, mədəniyyətin dinamizmini, yüksəlişini, yeniləşməsini təmin edir. Nəticədə sadalanan ənənələr əsasında mədəni-tarixi dəyərlər inteqrasiyalaşır və sabitləşir. Mədəniyyət isə milli, dünyəvi, dini, kütləvi, elitar növlərə bölünür. "Mədəniyyətin bütövlüyü və vəhdətinə gəldikdə o, aşağıdakı səciyyələrlə müəyyən edilir:

1. Mədəniyyət özündə təbii deyil, süni aləmi əks etdirir;
2. Mədəniyyətin yaranması-insanın mövcudluq üsulu kimi, sosial, təbii dəyərlər sistemi ilə bağlı olan şüurlu varlığın məqsədyönlü fəaliyyətinin nəticəsi kimi təzahür edir;
3. Mədəniyyət sivilizasiyaların, onun siyasi, iqtisadi, hərbi tarixinin konstektində inkişaf edir. Bu tarixdə həmişə varislik, irsilik iştirak edir;
4. Mədəniyyət bəşəriyyətin əxlaqi, intellektual və bədii-estetik vəziyyətinin meyarı, onun mənəvi dəyərlərin inkişaf dərəcəsi kimi çıxış etməyə qabildir" [7]. Buradan aydın olur ki, qlobal transformasiyalar şəraitində mədəniyyətlərin qarşılıqlı təsiri və bir-birlərinə nüfuz etməsi daha da dərinləşir. Belə olan halda inteqrasiya prosesləri mədəniyyət sahəsində müxtəlif ziddiyyətlərin yaranmasına, lakin müxtəlif milli və regional mədəniyyətlər arasında dialoq fəlsəfəsinin bərqərar olmasına təkan verir.

Müasir dövrdə mədəniyyətlərin qlobal, ümumbəşəri və universal formaları təkrarolunmaz unikal milli mədəniyyətlərin nailiyyətləri əsasında formalaşır. Başqa sözlə, inteqral bəşəri mədəniyyət bütün xalqların müştərək səyləri ilə yaranır və universal xarakter daşıyır.

Varlığın sistemində təbiət, cəmiyyət, insanın, yəni məkanın qeyri-məkan modelində mədəniyyətin öz yeri vardır. Görkəmli rus filosofu M.S.Kaqan özünün fundamental "Mədəniyyətin fəlsəfəsi" əsərində göstərir ki, *"mədəniyyətin fəlsəfi təhlili sübut edir ki, o, insan fəaliyyətinin formalaşdırdığı varlıq forması kimi çıxış edərək özündə aşağıdakı məqamları əks etdirir:*

– *fəaliyyətin subyekti kimi insanın özünün keyfiyyətini;*
– *insana anadangəlmə deyil, təhsil və tərbiyə vasitəsilə nəsillərdən-nəsillərə keçərək təkmilləşən fəaliyyət üsullarını;*
– *maddi, mənəvi, bədii və s. predmetlərin müxtəlifliyini;*
– *ikinci dərəcəli fəaliyyət üsullarını* [4, s. 31].

Buradan göründüyü kimi, aydın olur ki, mədəniyyət fəlsəfi tədqiqatın obyekti olaraq təbiət, cəmiyyət, insan varlığından doğur, çünki insan mədəniyyətin yaradıcısı, mədəniyyətin yaradılışında fəal iştirak edən fərddir.

**2. Mədəniyyət, insan və cəmiyyət anlayışları**

Milli mədəniyyət anlayışı müxtəlif xalqların sosial inkişafında oxşar və fərqli cəhətlərin mövcudluğuna əsaslanır. Belə fərqlər həmişə var, ancaq "milli" adını mədəniyyət yalnız cəmiyyətin kapitalizm mərhələsində qazanmışdır. Bunun üçün istər etnik, istərsə

də mədəni inkişaf baxımından uzun müddətli inkişaf yolunu keçmək lazım gəlmişdir. Bu inkişafın ontoloji yolu tarixçilərə və yazıçılara, xüsusilə filosoflara yaxşı məlumdur: bu yol dövrlərin, sivilizasiyaların bir-birini əvəz etməsi, sərbəst inkişaf və qarşılıqlı təsir vasitəsilə ictimai-mədəni baxımdan özünəməxsusluğun formalaşmasından ibarətdir. Burada itkilər və qazanılan uğurların əldə edilməsinin unikal imkanları var idi. Tarixdə məcazi mənada desək, bu proseslər qanla yazılırdı.

Bildiyimiz kimi, milli mədəniyyət anlayışı ümumiyyətlə mədəniyyət anlayışına nisbətən daha dar məna kəsb edir və məhdud çərçivəni əhatə edir. Lakin burada hər iki halda predmetin və obyektin dəqiq fərqləndirilməsi lazımdır. Mədəniyyət o qədər geniş və mənalı anlayışdır ki, onu milli mədəniyyət anlayışı ilə müqayisə etmək heç də asan məsəl deyil: çünki bu sahədə əsaslar çox fərqlidir. Fikrimizə tam aydınlıq gətirmək üçün problemin tarixinə müraciət edək. Mədəniyyətə, o cümlədən mədəniyyət fəlsəfəsinə aid əsərlərin böyük həcmdə olmasına baxmayaraq, onu deyə bilərik ki, ən ümumi yanaşmada mədəniyyət təbii mühitdən fərqli olaraq insan tərəfindən yaradılmış nə varsa onu ifadə edir. Tədqiqatçılar yalnız maddi və mənəvi mədəniyyəti fərqləndirmirlər (xatırladaq ki, bu bölgü şərtidir), onlar həm də sivilizasiyanın formalaşmasının tamamlanması kimi mədəniyyəti insan xarakterinin təzahürü kimi, fəaliyyət (məsələn, peşəkar) üsulu, həyat tərzi kimi, hər hansı regionun, xalqın, etnik qrupun tarixi inkişaf dövrü, düşüncə üslubu kimi və s. mədəniyyət formalarının olduğunu göstərirlər. Belə ki, bütün bu istiqamətlər fəlsəfi ümumiləşdirmələrin predmeti olmuşdur.

Məlum olduğu kimi, bəşəriyyətin tarixi fəaliyyəti nəticəsində onun üsul və vasitələrinin zənginləşməsi, daima dəyişilməsi prosesi baş verir. Lakin bu o demək deyildir ki, mədəniyyət yalnız şüurlu fəaliyyətin məhsuludur. Bu səbəbdən də hesab edirik ki, bəzi mədəniyyətşünas alimlərin mədəniyyəti fəaliyyətin hər hansı bir aspekti ilə eyniləşdirmək cəhdi qəbuledilməzdir. Bildiyimiz kimi, mədəniyyət problemi fəlsəfi təhlilin obyekti kimi inteqrativ mahiyyət kəsb edir. Mədəniyyətin konkret təzahür formaları-maddi, mənəvi, əxlaqi və fiziki səviyyədə çıxış etsə də burada ümumi, vahid, bütöv olan mədəni keyfiyyətdir. Mədəni substraktın bir-biri ilə qarşılıqlı əlaqədə olan üç cür modallığı diqqəti cəlb edir. Bunlardan biri insan modallığıdır ki, mədəniyyət burada keyfiyyəti əks etdirir, bəşəriyyətin, millətin, şəxsiyyətin məcmusu kimi çıxış edir. Fəaliyyət modallığında mədəniyyət hərəkət üsulunu, predmet modallığında isə insanın bütün müxtəlif-maddi, mənəvi və bədii yaradıcılığını əhatə edir. Bu mənada "mədəniyyət" anlayışı "insan" və "cəmiyyət" anlayışlarının məzmununa yaxındır.

Varlığın sistemində mədəniyyətin fəlsəfi təhlili onun nəzəriyyəsinin strukturunu müəyyən edir. M.Kaqan mədəniyyət fəlsəfəsinin ekstramədəni və intramədəni aspektlərini fərqləndirir: "Onun (mədəniyyət fəlsəfəsinin-N.H.) ekstramədəni aspekti aşağıdakıları nəzərdən keçirməyi tələb edir:

1. "Mədəniyyət/natura (təbiət)" münasibətləri;
2. "mədəniyyət/cəmiyyət" münasibətləri;
3. "mədəniyyət/insan" münasibətləri.

Mədəniyyət nəzəriyyəsinin intramədəni aspekti onun real varlıq kimi zaman və məkanda mövcud olması ilə müəyyən olunur" [4, s. 35]. Göründüyü kimi, mədəniyyətin xüsusiyyətlərinin mahiyyət və mövcudluğu təbiət-insan-cəmiyyət münasibətlərində məkan və zaman dəyişikliklərini, müxtəlif mədəniyyətlər arasındakı modifikasiyanı əks etdirir.

Mədəniyyət üç miqyaslı modus kəsb edir: bəşəriyyətin, sosial qrupların və şəxsiyyətin mədəniyyətləri. Mədəniyyətlərin diferensiasiyasında çoxsəviyyəli submədəniyyət formaları – etik, milli, demoqrafik, təhsil, sosioloji, peşə, dini təbəqələr təzahür edir.

Bildiyimiz kimi, insanın maddi və mənəvi sferalarda məqsədyönlü fəaliyyəti müəyyən nəticələr əldə etməyə imkan verir. Onu da qeyd edək ki, insan sosio-bioloji varlıq kimi həm təbiətin, həm də cəmiyyətin bir hissəsidir. İnsanın ağlı, zəkası, əxlaqı, dini, incəsənəti

onun təbii tərkib hissəsinə daxil deyildir. Mədəniyyətin fəlsəfəsinin görkəmli tədqiqatçılarından olan V.M.Mejuev mədəniyyəti insanın bütün ictimai əlaqələr və münasibətlərinin çoxtərəfli və zənginliyi ilə onun istehsalının məhsulu hesab edərək yazır: *"Mədəniyyət sahəsi insanın yaradıcı qüvvələrinin təsiri altında formalaşır. Mədəniyyətdə insan yaradıcı varlıq kimi onun zahiri təsirinin passiv obyekti deyil, onda dəyişikliklər əmələ gətirən subyekt kimi, həm də tarixi subyekt kimi təsəvvür olunur"* [9, s. 67]. Bir sözlə, müəllif belə hesab edir ki, mədəniyyət bioloji və sosial tələbatların vəhdətindən ibarət xüsusi fəaliyyət növüdür. Burada insan və təbiəti qovuşduran yaradıcı fəaliyyət, onun həyatının qarşılıqlı əlaqədə olan tərəflərini iştirak edir.

Mədəniyyətin yaranmasında üç fəaliyyət növü: praktiki, nəzəri, praktiki- mənəvi növləri əsas rol oynayır. Praktiki fəaliyyət özündə əməyi əks etdirir ki, əmək fəaliyyəti bəşər cəmiyyətinin formalaşmasında mühüm amil olmuşdur. Nəzəri fəaliyyət nəticəsində ideyalar, nəzəriyyələr, hipotezalar, fərziyyələr təşəkkül tapır. Praktiki-mənəvi fəaliyyət incəsənət və dinin yaranmasına gətirib çıxarır.

Müxtəlif tədqiqatçıların tərifləri və təsnifatları bir-birindən fərqlənsə də, onlarda mədəniyyətin ümumi fəlsəfi xüsusiyyətləri aşkara çıxır:

" -Mədəniyyət insan həyatının universal hadisəsidir;

- Mədəniyyət insanların birgə həyat fəaliyyətinin məhsuludur;
- Mədəniyyət öz ifadəsini dəyərlərdə, qaydalarda, adət və ənənələrdə tapır;
- Mədəniyyət irsən ötürülür, təlim-tərbiyə vasitəsilə, əməli təcrübə ilə mənimsənilir;
- Bəşəriyyət vahid sosial kollektiv deyil. Ona görə də, müxtəlif insan qrupları müxtəlif etnik, regional, sosial mədəniyyətlər yaratmışlar;
- Mədəniyyət dinamikdir, o, inkişafa və yeniləşməyə, onu öz mövcudluğunun dəyişikliklərinə uyğunlaşdıran insanların maraq və tələbatlarını təmin edən yeni forma və üsullar yaratmağa qadirdir;
- Mədəniyyət cəmiyyətin və onun üzvlərinin özünü eyniləşdirmək, onun daşıyıcılarının öz qrup və fərdi "Mən"ini dərk etmək, digər mədəniyyətlərlə və xalqlarla qarşılıqlı əlaqələrində "doğma" və "yad" əlamətləri ayırmaq üçün əsas kimi çıxış edir [10, s. 137]. Bu mülahizələrdə mədəniyyətin fəlsəfi mahiyyəti, strukturu, obyekti, subyekti, inkişafı və qarşılıqlı əlaqələri əks olunmuşdur.

Bir sıra beynəlxalq sənədlərdə mədəniyyət problemi bir neçə mənada işlədilir: "beynəlxalq hüquq normalarında öz əksini tapmış bir yanaşmaya görə mədəniyyət bütövlükdə cəmiyyətin və ya hər hansı konkret insan qruplarının məcmusu, maddi irsi, o cümlədən maddi mədəniyyət abidələri və əşyaları kimi müəyyənləşdirilir. Bu yanaşmaya görə mədəniyyət hüququ ayrı-ayrı şəxslərin və xalqların bu məcmu mədəni kapitaldan bərabər istifadə etmək hüququ deməkdir; 2) geniş yayılmış ikinci nöqteyi-nəzərə görə mədəniyyət indiyə qədər toplanmış və mövcud olan "mədəni kapital" deyil, bədii və elmi yaradıcılıq prosesi kimi nəzərdən keçirilməlidir" [6, s. 17]. Bu halda mədəni hüququn bu aspekti həm də mədəni inkişaf hüququ kimi də başa düşülür. Mədəni inkişaf iqtisadi, siyasi, sosial inkişafa paralel olaraq qəbul edilir.

Məlum olduğu kimi, mədəniyyət və cəmiyyət bir-birilərinə qarşılıqlı surətdə nüfuz edirlər. Eyni zamanda mədəniyyət insan həyatı ilə də bağlıdır. Belə ki, insanlar mədəniyyəti yaradır və nəsillərdən-nəsillərə ötürürlər. *"Hər bir cəmiyyətdə mədəniyyət varislik sayəsində mövcud olur. Cəmiyyətin hər hansı bir mövcudluq mərhələsində biz mədəniyyətin üç pilləsinə təsadüf edirik. Birincisi, bu pillə özündə əvvəlki nəsillərin yaratdıqlarını əks etdirir və fundament hesab olunur. İkinci pillə hazırda cəmiyyətdə yaşayan nəsillərin mədəni zənginliyinin mənimsənilməsidir. Bu, müasir cəmiyyətin mədəniyyətinin meyarı sayılır. Üçüncü pillə yaşayan nəsillərin yaradıcılıq fəaliyyətidir. Bu fəaliyyət növü keçmişin mənimsənilməsi dərəcəsindən asılıdır"* [5]. Şübhəsiz ki, varislikdə genetik ötürülən mədəni yaddaş əsas rol oynayır. Bütün biliklər, bacarıqlar, keçmişin, indinin dəyərləri, cəmiyyətdə

həyatın təşkili formaları yalnız mədəniyyət sistemində mövcud olur.

Qeyd edək ki, mədəni informasiyaların yaşaması, gələcək nəsillərə ötürülməsi çox mühüm rol oynayır. Bu məlumatların itməsi cəmiyyətdə mədəni tənəzzülə gətirib çıxara bilər. Məhz buna görə də, rusiyalı tədqiqatçı Y.M.Lotman yazır: *"Mədəniyyət həmişə əvvəlki, keçmiş təcrübənin qorunub saxlanması kimi başa düşülür. Bundan başqa, mədəniyyətin ən mühüm müəyyənliyindən biri onun "qeyri-genetik" kollektiv yaddaş kimi səciyyələndirilməsidir. Mədəniyyət yaddaşdır. Buna görə də o, həmişə tarixlə bağlı olur, insanın, cəmiyyətin və bəşəriyyətin əxlaqi, intellektual və mənəvi həyatının fasiləsizliyi kimi anlaşılır"* [8, s. 5]. Beləliklə, Lotmanın fikrincə, mədəniyyət kommunikasional və simvolik təbiətə malikdir. Buradan belə bir fikir hasil olur ki, mədəniyyət zaman və məkanda nəsillər, xalqlar və dövrlər arasında ünsiyyət formalarından biridir.

Bildiyimiz kimi, varisliyin ənənəvi məsələlərindən birini də mədəni irs anlayışı təşkil edir. Mədəni irsə bütün dəyər və normalar, o cümlədən müəyyən mərhələdə mədəni nailiyyətlərin bütün növləri daxildir. Burada bir məqama diqqət yetirmək yerinə düşərdi. Tarixdə elə mədəni nailiyyətlər əldə edilib ki, öz cəmiyyətində rədd olunub, lakin sonrakı tarixi dövrlərdə özünə layiqli yer tutub. Bunlar aşağıdakılardır:

1. "Mədəniyyətin inkişafının ən ilkin çağlarında onun sinkretizmi, təsnif olunmaması, onların "elmlərin elmi" sayılan fəlsəfəyə aidliyi;
2. Müxtəlif dövr və xalqlarda, böyük mübahisəyə səbəb olan əbədi mövzuların nəsillərdən-nəsillərə ötürülməsi;
3. Mədəni irsin ardıcıl toplanması və beynəlmiləlləşməsi;
4. Bəşəriyyətin son yüzilliklərdə kommunikasiya imkanlarının sürətli artımı nəticəsində əldə edilən mədəni irsin varisliyini daha da inkişaf etdirilməsi" [3, s. 20].

Əsrlərdən bəri təşəkkül tapmış, nəsillərdən-nəsillərə ötürülərək günümüzə gəlib çatmış milli-mənəvi dəyərlərmiz xalqın həyatına daxil olaraq azərbaycanlıları digər millətlərdən fərqləndirmiş, onun milli xarakterini müəyyənləşdirmişdir.

- "mərdlik, köməksizə humanistlik;
- sözünə bütövlülük, əliaçıqlılıq, səxavətlilik;
- ailəyə sədaqətlilik və bağlılıq;
- dostluğa möhkəmlik;
- vətənə, torpağa bağlılıq;
- düzlüyə aparan inam və etiqadın müqəddəsliyi;
- abır, həya, ismət və onun qorunması [1, s. 39].

Bütün bu keyfiyyətlər Azərbaycan xalqının mədəniyyətinin, milli-mənəvi varlığının ayrılmaz tərkib hissəsini təşkil edir. Müstəqil Azərbaycan dövləti bu qiymətli mədəni irsi qoruyub saxlayır, inkişaf etdirir və gələcək nəsillərə ötürülməsini təmin edir.

## Nəticə

Beləliklə, mədəniyyət probleminin fəlsəfi təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, "mədəniyyət" problemi öz həcminə görə ən geniş fəlsəfi tədqiqat obyektlərindən biridir. Mədəniyyətin mahiyyəti, spesifik xüsusiyyətləri, müxtəlifliyi ictimai-tarixi həyatın konkret tərəfləri ilə əlaqəli şəkildə nəzərdən keçirilir və digər fəlsəfi kateqoriyalarla müqayisəli təhlil edilir. Fəlsəfə mədəniyyəti nəzəri, həmçinin ictimai inkişafın real praktik problemi, dünyanın tarixi prosesinin bilavasitə nəticəsi, fenomeni kimi ictimai həyatın digər sahələri ilə qarşılıqlı təsirdə, ən geniş mənada insanın həyat fəaliyyətinin bütün əsas sferalarını əks etdirən ictimai hadisə olaraq araşdırır.

## ƏDƏBİYYAT

1. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı: Təknur, 2009, 444 s.
2. Mədəniyyətin funksiyaları. (http://unec.edu.az/application/uploads/ 2015/02/medeniyyet.docx).
3. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovanin ümumi redaktəsilə. Bakı: Sabah nəşriyyatı, 2010, 876 s.
4. Каган М.С. Философия культуры. Санкт-Петербург: Издательство СП-го государственного университета, 1996, 310 с.
5. Камирова А. Понятие культуры в современной философии. (//https://culture29.ru/upload/medialibrary/add/adda7727ea1d667374bb1848f5bed7af.pdf).
6. Культурные права и проблемы связанные с их признанием. Сборник очерков, посвященный празднованию 50-ой годовщиной принятия Всеобщей декларации прав человека. Издательство ЮНЕСКО, 1997. Издательский дом Магистр, ЮНЕСКО, 2003, 306 с.
7. Культура как предмет философского анализа. (//https:studfile.net/preview /6326637/page: 42/7 10).
8. Лотман Ю.М. Беседы о русской культуре. Санкт-Петербург: Изд-во СП-го государственного университета, 1994, 120 с.
9. Межуев В.М. Предмет теории культуры // Проблемы теории культуры. Москва: Мысль, 1977, с.63-72
10. Садохин А.П. Межкулыурная коммуникация. Москва: Альфа-М, 2006, 288 с.

***Резюме***

***Нигяр Гусейнова***

***Проблема культуры как один из объектов исследования социальной философии***

В статье исследуется проблема культуры с философской стороны продукта человеческой деятельности, средств коммуникации, феномена, который взаимодействует с обществом и человечеством, и того, как сохранить существующие принципы общественной жизни. В социальной философии одной из важных проблем считается феномен культуры, отражающий отношение человека к миру, его представления о себе и мире. Структура культуры классифицируется в соответствии с различными критериями, а социальная, политическая, экономическая, правовая, религиозная, научная, техническая, художественная культура дифференцируется, но также делится на знания, технологии и богатство.

Автор отметил, что в культурном процессе человек самоутверждается и в этом отношении культура становится критерием общественного развития. Проблема культуры широко освещалась в философской литературе как поле самоопределения и развития творческой силы человека. Одной из основных характерных черт культуры как философской категории является ее роль в контексте научной методологии и контексте определенного методологического направления. В этой статье исследуется культура - тип человеческого существования, способ его функционирования, процесс и результаты поиска места человека в мире, а также сумма материальных и моральных ценностей, идей, материальных объектов, технологий, отражающих активную творческую деятельность человека в мире. Культура считается открытой, исторически развивающейся системой. В статье автор показывает, что проблема культуры и национальной культуры всегда актуальна в системе философского знания. Потому что эти вопросы позволяют раскрыть суть общественной жизни. Философское содержание понятия «национальная культура» включает представления о национальном менталитете, этнических особенностях народа, его языке, искусстве, литературе, образе жизни, религиозных убеждениях, а также уровне развития образования, социального капитала. человека в целом. Хотя здесь отмечается, что понятие «национальная культура» вообще имеет узкое значение по сравнению с понятием «культура» и охватывает ограниченные рамки, говорится, что сравнение «культуры» с понятием «национальная культура» не является корректным. легкое дело.

**Ключевые слова:** *культура, философский анализ, культурная система, философское понимание, философская категория*

***Summary***

***Nigar Huseynova***

***The Problem of Culture as One of the Research Objects of Social Philosophy***

The article explores the problem of culture from the philosophical aspect of the product of human activity, the means of communication, the phenomenon that interacts with society, humanity and humanity, and how to preserve existing principles of public life. In social philosophy, the phenomenon of culture, which reflects a person's attitude to the world, his ideas about himself and the world, is considered one of the important problems. The structure of culture is classified according to various criteria, and the social, political, economic, legal, religious, scientific, technical, artistic culture is differentiated, but also divided into knowledge, technology and wealth.

It has been noted by the author that in the cultural process a person is self-asserted and in this regard culture becomes a criterion of social development. The problem of culture has been widely commented on in the philosophical literature as a field of self-determination and development of the creative force of man. One of the main characteristic features of culture as a philosophical category is its role in the context of scientific methodology in the context of a particular methodological direction. This article explores culture - the type of human existence, the way it operates, the process and results of searching for an individual's place in the world, and the sum of material and moral values, ideas, material objects, technologies that reflect the active creative activity of the individual in the world. Culture is said to be an open, historically evolving system. In the article, the author shows that the problem of culture and national culture is always relevant in the system of philosophical knowledge. Because these issues allow the essence of social life to be revealed. The philosophical content of the concept of "national culture" includes ideas about the national mentality, the ethnic characteristics of the people, its language, art, literature, lifestyle, religious belief, as well as the level of development of education, the social capital of a person as a whole.Although it is noted here that the concept of "national culture" generally has a narrow meaning compared to the concept of "culture" and covers a limited framework, it is said that comparing "culture" with the concept of "national culture" is not an easy matter.

**Keywords:** *culture, philosophical analysis, cultural system, philosophical understanding, philosophical category*

Redaksiya heyətinin üzvü f.ü.f.d., dos. Qaraməmmədli Yasin Alı oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.